# HACIQABUL

№ 04
(663)

25 fevral
2017-ci il

Hacıqabul rayon İcra Hakimiyyətinin qəzeti


# Ötən ilin yekunları builki uğurlarımızın başlanğıcıdır

## *Fevralın 14-də Hacıqabul rayonunun 2016-cı ildə sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş hesabat yığıncağı keçirildi*



***Yığıncaqda Prezident Administrasiyasının məsul işçisi İbrahim Mustafayev, Milli Məclisin deputatı Rəfael Hüseynov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, ayrı-ayrı idarə, müəssisə, təşkilat rəhbərləri və əmək kollektivləri, şəhər, qəsəbə, kənd İƏD üzrə nümayəndələr və bələdiyyə sədrləri, sahibkarlar və ziyalılar iştirak edirdi.***

Tədbirdən öncə rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov, qonaqlar və bir qrup rayon fəalları ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək, abidə önünə gül dəstələri düzdülər.

Sonra iştirakçılar rayon Mədəniyyət evinin foyesində təşkil olunmuş rayonda istehsal olunan yerli sənaye və kənd təsərrüfatı məhsullarından ibarət sərgi ilə tanış oldular.

Yığıncaq öz işini rayon Mədəniyyət Evinin akt zalında davam etdirdi.

RİH Başçısı Əhməd Muxtarov yığıncağı acaraq hesabat məruzəsi ilə çıxış etdi, il ərzində görülən işlər və qarşıda duran vəzifələr nəzərə çatdırıldı.

(Məruzə geniş şəkildə "Hacıqabul" qəzetinin 06 fevral 2017-ci il tarixli sayında dərc olunmuşdur.)

RİH Başçısı çıxışında ilk növbədə diqqəti yanvarın 11-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasına, iclasda dövlət başçısının nitqindən irəli gələn fikir və müddəalara cəlb etdi. Qeyd etdi ki, iclasda giriş nitqi ilə çıxış edən dövlətimizin başçısı 2016-cı ildə dünyada, regionda və ölkəmizdə cərəyan edən hadisələrdən, xüsusi ilə neftin qiymətinin aşağı düşməsi fonunda yaranan böhrandan, iqtisadi və hərbi sahələrdə yaranmış vəziyyət barədə danışmışdır. Ötən ilin ölkəmizin tarixində dərin iqtisadi islahatlar dövrü kimi qalacağını vurğulayan möhtərəm Prezidentimiz qəbul edilən qərarlar nəticəsində bundan sonra da qeyri-neft sektorunun inkişafının diqqət mərkəzində olacağını qeyd etmişdir.

Ötən ildə də Azərbaycan torpaqlarının işğaldan azad olunması və BMT-nin 4 qətnaməsinin yerinə yetirilməsi ilə bağlı dövlətimizin mövqeyi dəyişməz qalmışdır. 2016-cı ilin aprelində təmas xəttində baş verən döyüşlərə toxunun möhtərəm Prezidentimiz əks hücum əməliyyatı nəticəsində ordumuzun düşmənə sarsıdıcı zərbələr vurduğunu və minlərlə hektar torpağın işğaldan azad edildiyini bildirmişdir.

Dövlətimizin başçısı yekun nitqində inşaat sektorunun canlandırılması ilə bağlı bir çox layihələrin həyata keçirildiyini bildirməklə cari ildə də sənaye parkının yaradılması, kənd təsərrüfatının, xüsusi ilə də taxıl, pambıq, çay, barama və şərab istehsalının artırılması, meyvəçiliyin və heyvandarlığın inkişafı ilə bağlı tədbirlərin görülməsinin əhəmiyyətindən danışmışdır.



Ötən ildə iqtisadiyyatın bütün sahələri üzrə məhsul buraxılışının həcmi 211 914.1 min manat olmuşdur. Məhsul buraxılışında qeyri-neft sektorunun payı 2015-ci ilə nisbətən 1,2% artaraq 67,04% olmuşdur.

Rayonun iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Rayonda aqrar islahatların uğurla həyata keçirilməsi kənd təsərrüfatının dinamik inkişaf etdirilməsinə, bu sahədə qazanılan uğurları daha da artırmağa zəmin yaradır. Kənd təsərrüfatı məhsulları istehsalçılarının və xidmət təşkilatlarının gərgin əməyi nəticəsində kənd təəsərrüfatı məhsullarının buraxılşı 2015-ci illə müqayisədə 990.8 min manat və ya 0.8% artaraq 120 047.0 min manat olmuşdur.

2016-cı ilin məhsulu üçün 13 793 hektar sahədə taxıl əkilmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 924 hektar artıqdır. Taxıl əkininin 7130 hektarını buğda, 6663 hektarını arpa təşkil etmişdir. Zəmilərdən 47310 ton taxıl məhsulu əldə olunmuşdur ki, bu da ötən ilin məhsulu ilə müqayisədə 3329 ton çoxdur. İstehsal olunmuş məhsulun 25 922 tonunu buğda, 21 388 tonunu isə arpa təşkil etmişdir. Hər hektardan məhsuldarlıq 34,3 sentner olmuşdur.

Ötən ildə 526 hektar sahədə pambıq, 1572 hektar sahədə bostan, 778 hektar sahədə tərəvəz, 346 hektar sahədə qarğıdalı, 160 hektar sahədə şəkər çuğunduru, 40 hektar sahədə kartof, 40 hektar sahədə soya, 632 hektar sahədə yonca olmaqla cəmi 4094 hektar sahədə yazlıq əkin aparılmışdır ki, bu da keçən ilki yazlıq əkinlərlə nisbətdə 435 hektar çoxdur.

2016-cı təsərrüfat ili ərzində 1000.9 ton pambıq, 23 309 ton bostan, 20 261 ton tərəvəz, 1965.5 ton qarğıdalı, 439 ton kartof, 6200 ton şəkər çuğunduru, 40 ton soya, 11 205 ton meyvə istehsal olunmuşdur. Keçən ilin müvafiq dövrü ilə müqayisədə 3 ton bostan, 45 ton tərəvəz, 1800.5 ton qarğıdalı, 11 ton kartof, 148 ton meyvə məhsulu çox istehsal olunmuşdur.

Qeyd etmək lazımdır ki, 2016-cı ildə rayonumuzda pambıq əkini uzun illərdən sonra, soya və şəkər çuğundurunun əkini isə ilk dəfə həyata keçirilmişdir. Kənd zəhmətkeşləri tərəfindən 2017-ci ildə 1200 hektardan çox sahədə pambıq əkini həyata keçiriləcəkdir. Artıq 29 pambıq istehsalçısı tərəfindən 1203.9 hektar sahədə pambıq əkilməsi üçün "MKT İK" MMC ilə müqavilə bağlanmışdır.

Torpaq mülkiyyətçiləri üçün rayon şəraitinə uyğun digər əlverişli bitkilərdən biri də şəkər çuğundurudur. 2016-cı ildə 160 hektar sahədən 6200 ton şəkər çuğundurunun istehsal edilməsi bunun nümunəsidir.

Taxıl istehsalı da ərzaq təhlükəsizliyi baxımından mühüm əhəmiyyət kəsb edir. 2016-cı ilin payızında 2017-ci ilin məhsulu üçün 8950 hektar sahədə buğda, 6870 hektar sahədə arpa olmaqla cəmi 15 820 hektar sahədə taxıl əkini aparılmışdır ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 2027 hektar çoxdur.

Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, iri taxılçılıq təsərrüfatlarının və aqroparkların yaradılması istiqamətində işlər davam etdirilir.

Hacıqabul rayonunun Padar ərazisində 1625 hektar sahədə iri əkinçilik təsərrüfatı təşkil edilmişdir. Bu təsərrüfatda infrastruktur yaradılmış, pilot suvarma sistemi quraşdırılmış, texnikalar alınmış, ofis, anbar, texnikalar üçün qaraj və yeməkxana tikilmişdir. Payız əkin dövründə 700 hektar sahədə buğda, 530 sahədə payızlıq şəkər çuğunduru əkilmişdir.

"Regionların sosial-iqtisadi inkişafı" Dövlət Proqramının icrası çərçivəsində Muğan, Padar qəsəbələrində və Qarasu kəndində torpaq sahələrinin suvarılmasını təmin etmək məqsədilə 2007-ci ildə tikintisinə başlanılmış, mənbəyi Ağsu rayonu ərazisində Yuxarı Şirvan kanalının qolundan su götürən ümumi uzunluğu 53,95 km və su keçirmə qabiliyyəti 5 kub metr/san olan Hacıqabul magistral beton kanalının 28,1 km-lik hissəsi, 12,5 km-lik Padar magistral beton kanalın, Hacıqabul magistral kanalından ayrılan 7,1 km-lik Qarasu magistral kanalının 3,5 km-lik hissəsinin tikintisi başa çatdırılmışdır. 5 km-ə yaxın təsərrüfatdaxili kanallar da tikilərək istismara verilib. Növbəti mərhələdə kanalın Qarasu və Muğan qollarının tikintisi və rayonun Padar-Qarasu-Muğan ərazisində 5560 hektar yararlı sahələrdə kompleks meliorasiya işlərinin aparılması nəzərdə tutulur. Padar-Qarasu ərazilərində 2000 hektara yaxın həyətyanı və əkin sahələrinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 03 aprel 2013-cü il tarixli Sərəncamı ilə yaradılmış 1625 hektar iri əkinçilik təsərrüfatının, 440 hektar sahədə əkilmiş pambığın və digər əkinlərin suvarma suyu ilə təminatı bu kanal vasitəsilə həyata keçirilmişdir.

Rayonun 16356 hektar suvarılan torpaqları da kənd təsərrüfatı əkinləri suvarma suyu ilə təmin edilir.

Əkinlərin su təminatının yaxşılaşdırılması üçün rayon Suvarma Sisitemləri İdarəsi tərəfinfən 2016-cı ildə 395 km-ə yaxın təsərrüfatlararası və təsərrüfatdaxili kanallarda lildən təmizləmə işləri yerinə yetirilmişdir.



Son üç il ərzində rayonun Kür boyu suvarılan ərazilərində 6 ədəd yeni üzən nasos stansiyaları istismara verilməklə, ümumilikdə Kür çayından su götürən nasosların məhsuldarlığı 2,7 m3/san artırılmışdır. Bununla Kür boyu ərazilərdə quraqlıq dövrlərdə belə suvarma suyundan heç bir problem olmayacaqdır.

"Aqrolizinq" vasitəsilə 2016-cı il ərzində 130 nəfər kənd təsərrüfatı məhsulları istehsalçılarına 273.95 ton müxtəlif növ mineral gübrələrin satışı həyata keçirilmişdir.

Hesabat dövründə Hacıqabul şəhərinin yaşıllaşdırılması məqsədilə 4000 ədəd ağac və 2500 ədəddən artıq gül bitkiləri əkilmişdir.

Hesabat dövründə sənayedə məhsul buraxılışının həcmi ötən illə müqayisədə 231.3 min manat və ya 5,6% artaraq 4388.4 min manat, pərakəndə əmtəə dövriyyəsi 29 203.9 min manat və ya 16,5% artaraq 205 920.0 min manat, iaşə dövriyyəsi 398.3 min manat və ya 13,0% artaraq 3470.0 min manat, məişət xidmətlərinin həcmi 545,6 min manat və ya 10,2% artaraq 5870.0 min manat, nəqliyyatda məhsul buraxılışı 138.3 min manat və ya 4.6% artaraq 3154.3 min manat, rabitə xidmətinin həcmi 15.2 manat və ya 2.6% artaraq 604.1 manat olmuşdur.

2016-cı ildə Hacıqabul rayonunda iqtisadiyyatın bütün sahələrinə yönəldilmiş əsas kapitala investisiyaların ümumi həcmi 19 390.1 min manat, o cümlədən tikinti quraşdırma işlərinin həcmi 18 855.5 min manat olmuşdur.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ilə əlaqədar 2016-cı il ərzində Hacıqabul rayonunda da mühüm layihələr həyata keçirilmişdir. Rayon ərazisində tikinti-quraşdırma, abadlıq və yenidənqurma işləri davam etdirilmişdir.

Sevindirici haldır ki, möhtərəm Prezidentimiz yekun nitqində respublikamızda aparılacaq meliorasiya işləri ilə bağlı həyata keçiriləcək layihələrdən bəhs edərkən Hacıqabul rayonunda 4800 hektara əkin suyunun verilməsini təmin etmək üçün dövlət vəsaitinin ayrıldığını bildirmişdir. Digər bir layihənin reallaşması "Azərsu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən icra ediləcəkdir ki, bunun nəticəsində Hacıqabul və Şamaxı rayonlarında daha 10 min hektar torpaq suvarılacaqdır.

Sonra RİH Başçısı cari ildə görüləcək işlərdən, həyata keçiriləcək layihələrdən ətraflı danışaraq vurğuladı ki, yerli sənaye müəssisələri yaradılacaq, yeni iş yerləri açılacaq, yollar çəkiləcək, aqrar sahənin inkişafına diqqət daha da artırılacaqdır.

Məruzə ətrafında rayon Maliyyə Şöbəsinin müdiri Vüqar İbrahimov, rayon Suvarma Sistemləri İdarəsinin rəisi İbrahim İbrahimov, DSMF rayon şöbəsinin müdiri Xalis Həsənov, rayon Gənclər və İdman İdarəsinin rəisi Saleh Ələsgərov çıxış etdilər.

Prezident Administrasiyasının məsul işçisi İbrahim Mustafayev və Milli Məclisin deputatı Rəfael Hüseynov yığıncaqda çıxış edərək rayonda bir il ərzində görülən işlərdən, qarşıda duran vəzifələrdən danışdılar. Bir il ərzində görülən işlərin qənaətbəxş olduğunu nəzərə çatdırdılar.

Hesabat yığıcağında məruzə və çıxışlar dinlənilərək RİH Başçısının 2016-cı ildə gördüyü işlər qənaətbəxş hesab edildi, müvafiq qərar qəbul olundu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə yığıncaq iştirakçıları adından müraciət qəbul edildi.

***"Hacıqabul"***

# XX əsrin faciəsi- Xocalı soyqırımı

## 25 il ötsə də...

***Tarixin müxtəlif dönəmlərində ermənilər tərəfindən soyqırıma məruz qalan Azərbaycan xalqı növbəti dəfə belə faciə ilə 1992-ci ilin fevralında Xocalıda üzləşdi. Sovet imperiyasının süqutu ilə yaranan mürəkkəb tarixi və ictimai-siyasi şəraitdə dövlət müstəqilliyini yenicə qazanan Azərbaycanın üzləşdiyi ərazi itkisi ilə yanaşı, əsrin ən dəhşətli faciələrindən birini yaşaması ölkənin yeni tarixinə qara həriflərlə yazıldı. Bu bəşəriyyət tarixinə qanla yazılan bir gün idi.***






Qarabağın qanlı-qadalı illərində dəhşətli qırğınlar törədilən, yer üzündən silinərək yaddaşlarda daşlaşan Xocalı, əsrin ən böyük faciəsi idi. Bu faciəli gündən illər ötsə də, xalqımız bu günü heç vaxt unutmur. Hər ilin 26 fevral günü respublikamızın hər yerində ümumxalq hüzn günü kimi yad edilir, anım mərasimləri keçirilir. Həmin gün rayonumuzda da ümumrayon hüzn günü qeyd edilir, rayonun ayrı-ayrı əmək kollektivlərində Xocalı faciəsi ilə əlaqədar anım mərasimləri keçirilir.

Bu il də Xocalı faciəsinin 25-ci ildönümünün keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 24 yanvar 2017-ci il tarixli Sərəncamından irəli gələn vəzifələrin Hacıqabul rayonunda həyata keçirilməsini təmin etmək üçün rayon İcra Hakimiyyəti Başçısı Aparatında Tədbirlər Planı təsdiq olunmuş, tədbirlər planına əsasən rayonun ayrı-ayrı əmək kollektivlərində, müəssisə, təşkilat və yaşayış yerlərində Xocalı soyqırımına həsr olunmuş tədbirlər, anım günləri, xatirə gecələri, foto və rəsm sərgiləri, idman yarışları, azadlıq uğrunda mübarizəyə həsr olunmuş sənədli və bədii filmlərin nümayişi, rayonun ümumtəhsil məktəblərində "Qəhrəmanlar ölmürlər" mövzusunda inşa yazı müsabiqəsi keçirilmiş, rayonda fəaliyyət göstərən dini qurumlar tərəfindən Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş anım mərasimləri təşkil edilmişdir. Rayonun bütün ümumtəhsil məktəblərində, səhiyyə, mədəniyyət müəssisələrində Xocalı soyqırımına həsr olunmuş müxtəlif səpkili anım mərasimləri. tədbirlər keçirilmişdir.

Fevralın 25-də Xocalı soyqırımının 25 illiyi ilə əlaqədar rayon Heydər Əliyev Mərkəzində anım mərasimi keçirildi. Tədbirdən öncə iştirakçılar Mərkəzin geniş həyətində nümayiş olunan Xocalı faciəsini özündə əks etdirən rəsm və kitab sərgisi ilə tanış oldular.

Tədbiri rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov açdıqdan sonra soyqırım qurbanlarının və şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edildi. RİH Başçısı Xocalıda baş verən soyqırım hadisəsini bir daha xatırladaraq qeyd etdi ki, Xocalı adı çəkiləndə insanlığa qarşı amansızlığın, vəhşiliyin sübutu olan faciə canlanır gözlərimiz önündə.

1992-ci il fevralın 25-dən 26-a keçən gecə silahlı erməni dəstələri keçmiş sovet ordusunun Xankəndində yerləşən 366-cı motoatıcı alayının ağır texnikası və şəxsi heyətinin köməyi ilə Azərbaycanın qədim şəhəri üzərinə hücum etdi, şəhərin dinc əhalisinə divan tutdu. O zaman şəhərdə qalan 3 minə yaxın əhali insanlığa xas olmayan ən ağır vəhşiliklərlə üzləşdi. Həmin o şaxtalı-boranlı soyuq fevral gecəsinə qədər xocalılar dörd ay idi ki, səksəkə, vahimə içərisində yaşayırdılar. Lakin son ana qədər doğma ocaqlarını tərk etmədilər. Çünki bu millətdə Vətənə, torpağa elə bir bağlılıq var ki, onu heç bir qüvvə əvəz edə bilməz. Elə məhz bu bağlılıq xocalılara unudulması mümkün olmayan dəhşətlər yaşatdı.Xocalıda ermənilərin törətdikləri dəhşətli hadisələr Azərbaycanın tarixinə qanlı həriflərlə yazıldı. Çünki Xocalıda törədilən faciə təkcə Azərbaycan xalqına qarşı deyil, bəşəriyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayətdir.

Düz 25 il ötür bu faciədən. Amma bir anlıq adamda elə təəssürat yaranır ki, o günün acılarından bu günümüzə qalan tək tarixi faktlar, statistik rəqəmlər və çəkilən görüntülərdir. Halbuki, o dəhşətli günün acısını özü ilə bu günə daşıyan yüzlərlə insan var aramızda. Çoxlarımızdan fərqli olaraq onlar həm yaşadıqları dəhşəti, həm də Xocalı dərdini ürəklərində ömürlük yük tək daşımaq kimi bir taleyə məhkumdurlar.

Xocalı soyqırımını törətməklə düşmənin məqsədi Azərbaycan xalqını sarsıtmaq, suverenlik və ərazi bütövlüyü uğrunda mübarizədən çəkindirmək və torpaqlarımızı zorla ələ keçirmək olsa da, bu ağır faciə xalqımızı daha da mətinləşdirmiş, oğul və qızlarımızı müqəddəs Vətən və dövlətçiliyimiz naminə qətiyyətli və mütəşəkkil mübarizəyə səfərbər etdi. O günlərdən 25 il ötməsinə baxmayaraq həmin qanlı gecədə erməni təcavüzkarlarının törətdikləri vəhşilik və cinayətin dəhşətləri yaddaşlardan heç vaxt silinməyəcək.

Tədbirdə rayon Təhsil Şöbəsinin müdiri Şükür Məmmədov, rayon Gənclər və İdman İdarəsinin rəisi Saleh Ələsgərov, şəhər 8 saylı məktəbin XI sinif şagirdi Gilas Mehtiyeva çıxış edərək faciədən ürəkağrısı ilə danışdılar.

Sonda Xocalı soyqırımını əks etdirən sənədli filmi nümayiş etdirildi.

***"Hacıqabul"***

# Prezidentin tapşırığına əsasən əhalininn pulsuz tibbi müayinəsi aparılır

***Prezident İlham Əliyevin tapşırığına əsasən respublikamızın hər yerində, eləcə də Hacıqabul rayonunda əhalinin növbəti kütləvi pulsuz tibbi müayinəsi ilə əlaqədar fevralın 15-dən başlanan aksiya müvəffəqiyyətlə davam edir. Aksiya çərçivəsində 50 min nəfərdən çox rayon sakininin tibbi müayinədən keçiriləcəyi gözlənilir. Əhalinin müayinəsi rayon Uşaq Tibb Mərkəzində ixtisaslı həkim briqadası tərəfindən aparılır.***









Sakinlər növbəlilik əsasında qeydiyyatdan keçdikdən sonra terapevt, ehtiyaca uyğun olaraq cərrah, lor, oftalmoloq, ginekoloq, nevropotoloq, stomotoloq və sair ixtisaslı həkimlərin qəbulunda olur, kardioqrama, ultrasəs, rentqen, laborator və digər müayinələrdən keçirlər. Aksiya başlanandan - fevralın 15-dən bu günə qədər 6662 nəfər vətəndaş tibbi müayinədən keçirilib. 296 nəfər ambulator, 36 nəfər stasionar müalicəyə cəlb edilib. 12 nəfər isə müalicə üçün respublikamızın ixtisaslaşmış xəstəxanalarına göndərilib. Sakinlər daha çox yuxarı tənəffüs yolları, ürək-damar, qan təzyiqi, şəkərli diabet və revmatik xəstəliklərdən əziyyət çəkdiklərini bildirirlər. Aşkara çıxarılan xəstəliklər üzrə müalicə kursları təyin edilir.

Prezident İlham Əliyevin Azərbaycanın hər vətəndaşının sağlamlığına diqqəti və qayğıkeş münasibəti sakinlər tərəfindən minnətdarlıqla qarşılanır, dövlət başçısına sağlamlığımızın qayğısına qaldığı üçün minnətdarlıq hisslərini bildirirlər.

***"Hacıqabul"***

# Qadınlar həyatın mənası, bəzəyi və əbədi gözəlliyidir

***Ülvilik, zəriflik və gözəllik rəmzi olan qadın adı ölkəmizdə hər zaman uca tutulmuş, bütün dövrlərdə öz zəhmətkeşliyi, ailəcanlılığı, istedadı, namusu, qeyrəti, iradəsi, əzmi ilə fərqlənmiş, milli-mənəvi dəyərlərimizin qorunub saxlanması yolunda bir mayak, nümunə olmuşdur.***

Qadınlar cəmiyyətdə, həyatda göstərdikləri başqa xidmətlərlə yanaşı, ona görə ən yüksək qiymətə layiqdirlər ki, onlar anadır. Dünyaya övlad bəxş edirlər.

Lakin bəzən qadınlara qarşı olunan zorakılıq, təqiblər, təhqirlər bizi bir anlıq düşünməyə vadar edir. Görəsən həmişəmi qadınlara diqqət və qayğı olunur?

Bəzən elə hadisələrin şahidi olur, elə sözlər eşidirik ki, onun qadına qarşı edildiyinə, xüsusən də Azərbaycan kişisinin qadına qarşı etdiyinə inana bilmirik. Çünki biz ata babalarımızdan belə eşitmişik ki, hər bir Azərbaycan qadını kişilərin baş tacı olmalıdır, onu öz anası, bacısı bilməlidir. Qadın zorakılığa deyil, qayğıya, hörmətə, diqqətə möhtacdır.

Elə bu günlərdə rayonumuzda baş verən bir hadisə mənim bu yazını qələmə almağıma səbəb oldu. Əvvəlcə onu qeyd etmək istəyirəm ki, rayonumuz hər zaman insanlarının zəhmətkeşliyi, bir-birinə hörməti, böyük-kiçik yeri bilənliyi və xüsusən də qadına hörməti ilə seçilmişdir. Hacıqabulda istər gənc, istərsə də yaşlı insanlar hər zaman qadınlarının təəssübünü çəkmiş, onlara öz ana-bacısı kimi yanaşmışdır və bu neçə illər ərzində bir dəfə də olsun hər hançı bir kişinin qadına qarşı zorakılığının şahidi olmamışıq. Bu günlərdə isə rayonumuzda görünməmiş bir hadisə baş vermişdir. Bir qadın axşamtərəfi işdən sonra marketdən bazarlıq edib evə gedərkən bir nəfər gənc onu təqib etmiş, ona xəsarət yetirərək çantasını əlindən alıb qaçmışdır. Düzü bu hadisəni eşidəndə şoka düşdük Çünki illərdir biz bu şəhərdə yaşayırıq və nə belə bir hadisəni eşitmişik, nə də ki, görmüşük. Əlbəttə bu hadisə bu gün hər birimizi narahat edir. Lakin sağ olsun rayonumuzun hüquq-mühafizə orqanları, asayiş keşikçilərimiz. Hər zaman asayişimizin keşiyində dayanıb bizi qoruyanlar. Bu dəfə də cinayətkar çox uzağa gedə bilmədi. Polislər tez bir zamanda cinayətkarı yaxalayaraq istintaq orqanına təhvil verdilər və ümüdvarıq ki, layiqli cəzasını alacaqdır. Biz isə belələrinə üzümüzü tutub deyirik: Hər bir Azərbaycan kişisi azərbaycanlı qadını özünə ana, bacı bilməlidir.Belə yoldan, belə işlərdən əl çəkin. Xüsusilə gənclərimiz hər biri faydalı, xeyirli bir işlə məşğul olsunlar. Bir qadına əl qaldırıb ondan oğurluq etmək heç kəsə başucalığı gətirməz. Xalqımızın təfəkküründə qadın məfhumu hər zaman doğma yurdun, Vətən torpağının təcəssümüdür. Deməli, qadına əl qaldırmaq, ona qarşı zorakılıq etmək Vətən torpağını öz əlinlə yağılara vermək kimi bir şeydir.

Üzümü qəzetimiz vasitəsilə kişilərimizə, xüsusən gənclərimizə tutub deyirəm: Qadınlara hörmətlə yanaşın, onları qayğısız, diqqətsiz qoymayın, çünki qadınlar həmişə mənəvi dayağa, ülvi məhəbbətə, ılıq nəfəsə ehtiyac duyurlar.

Qadınlar həyatın mənası, bəzəyi və əbədi gözəlliyidir.

***Xuraman Feyruzqızı***

# İmkanlardan bacarıqla istifadə edilməlidir

***Artıq rayonun qəsəbə və kəndlərində rayon İcra Hakimiyyəti Başçısının səyyar qəbulları ənənəvi hal almışdır. RİH Başçısının bu dəfəki səyyar qəbulu isə rayonun Qarasu kəndində keçirildi.***

Qarasu kənd tam orta məktəbinin akt zalında keçirilən qəbulda kənd sakinləri, ağsaqqallar, sahibkar və torpaq mülkiyyətçiləri iştirak edirdi. Kənd camaatının sosial durumu, iş, məişət şəraiti ilə maraqlanmaq, onların üzləşdiyi bəzi problemləri yerindəcə həll etmək məqsədi ilə görüşə gələn RİH başçısı Əhməd Muxtarovu və rayonun hüquq-mühafizə orqanlarının, təhsil, səhiyyə, mədəniyyət, xidmət idarə, təşkilatlarının rəhbərlərini qəbul iştirakçıları səmimiyyətlə qarşıladılar.

RİH Başçısı kənd sakinlərini səmimi salamladıqdan sonra bildirdi ki, bu cür qəbulların keçirilməsində məqsəd yerlərdə insanların qayğı və problemləri ilə maraqlanmaq, onların həllinə köməklik göstərməkdir və vurğuladı ki, Qarasu kəndi hər zaman öz axar-baxarlılığı ilə seçilən kəndlərimizdəndir. Kənddə işıq, su, qaz problemi demək olar ki, həll olunubdur. Bu kəndin insanları zəhmətkeş. elinə, obasına can yandıran insanlardır.

İlk olaraq kənd ziyalıları adından Teyyub Fərəcov söz alaraq öz minnətdarlıq hisslərini dilə gətirdi. Qeyd etdi ki, ölkəmizdə həyata keçirilən siyasətin mütərəqqiliyi ondan ibarətdir ki, inkişaf təkcə böyük şəhərlərdə deyil, qəsəbə və kəndləri, hətta ən ucqar yaşayış məntəqələrini də əhatə edir. Bu gün Hacıqabul rayonunda da abadlıq-quruculuq işləri böyük vüsət alıb. Kəndimizdəki bu gözəl məktəb tikilib kənd sakinlərinə hədiyyə olunub. Əraziyə qaz xətti də çəkilib, su da var, işıq da. Lakin kənddə Smartkart tipli sayğacların quraşdırılmasını istəyirik. Bir də kənddə 630 kilovotluq transformatorlar var ki, onların da təmirə ehtiyacı var. Daha sonra kənd sakini Xanəli Ağakişiyev həyətyanı sahəsində olan transformatorun kənara çıxarılması üçün köməklik istədiyini bildirdi.

Fərqanə Bəylərova kənddə açıq tipli kanalizasiya xətti üzərində qurulmuş körpünün təmirə ehtiyacı olduğunu, Yeganə Dəmirova isə ünvanlı sosial yardımla bağlı köməklik göstərilməsini xahiş etdi.

Kənd sakini Ariz İbrahimov pay torpaqlarının meliorasiya olunmasını, Əlifaiq Qubadov kəndin ərazisindən keçən İpək yolunun altında olan yeraltı keçidin təmizlənib normal istifadə üçün yararlı hala salınması üçün köməklik göstərilməsini xahiş etdilər.

Sonra sahibkar İslam Hüseynov kəndə yaxın ərazidə tədarük məntəqələrinin olmamasını dilə gətirdi. Gələcəkdə nəzərə alınmasını xahiş etdi.

Bütün təklif və müraciətləri diqqətlə dinləyən RİH Başçısı səsləndirilən problemlərin nisbətən asan olanlarının elə anındaca həlli üçün aidiyyatı təşkilat rəhbərlərinə göstəriş verdi. Həlli üçün zaman və vəsait tələb olunan problemlərin isə tezliklə həll olunması üçün tapşırıq və tövsiyyələrini verdi. Vurğuladı ki, bu gün dövlətimiz, ölkə prezidenti hər bir vətəndaşının rahat yaşaması üçün əlindən gələni əsirgəmir. 19 min əhalinin yaşadığı, 10 yaşayış məntəqəsini birləşdirən Qarasu-Abdulabad-Talış-Meyniman-Muğan avtomobil yolunun tikintisinin başa çatdırılması üçün yanvar ayında ölkə Prezidentinin Sərəncam verdiyini və vəsait ayırdığını qeyd edən RİH Başçısı kənd sakinlərinə bir tövsiyyəsini də bildirdi. Qeyd etdi ki, pay torpaqlarından səmərəli istifadə etsinlər. Aqrar sahəyə dövlət dəstəyindən danışan RİH Başçısı ötən il ilk dəfə kənddə pambıq əkildiyini və uğurlu nəticələr əldə olunduğunu dilə gətirdi. Kənd sakinlərinin pambıqçılığa və baramaçılığa önəm vermələri üçün tapşırıq və tövsiyyələrini verdi.

***"Hacıqabul"***

## *Elimizin şair oğlu Xeybər İgidəliyev - 80*



# Vaxt gələr, axtarıb gəzərlər məni...

***Bu günlərdə şəhər folklor klubunda rayon Mədəniyyət və Turizm Şöbəsinin təşkilatçılığı ilə peşəkar şair-jurnalist-müəllim Xeybər İgidəliyevin xatirəsinə həsr olunmuş musiqili ədəbi tədbir keçirilmişdir. Tədbirdə rayon sakinləri, ictimaiyyət nümayəndələri şairin dostları, qohumları iştirak etmişlər. Tədbirin aparıcısı Xeybər müəllimin həyat yolu və yaradıcılığı barədə qısa məlumat verdikdən sonra şəhər məktəblərinin şagirdləri şairin şerlərindən nümunələr söylədilər.***

Xeybər Zəfər oğlu İgidəliyev 1937-ci il fevralın 17-də Hacıqabulda anadan olub. Onun məktəb illəri Böyük Vətən Müharibəsinin son illərinə düşmüşdür. Amma həyatın çətinliyinə, əzab-əziyyətinə baxmayaraq o, əlaçı şagirdlərdən olmuşdur. Doğmalarının dediyinə görə, Xeybər 6-7-ci siniflərdən şerə həvəs göstərmiş, məktəbdə keçirilən tədbirlərə böyük həvəslə qoşulmuşdur. Orta məktəbin 8-ci sinfində oxuyarkən baş verən bir hadisə gənc Xeybərin həyatında əhəmiyyətli, mühüm bir dəyişikliyə səbəb olur. 1955-ci il martın 27-də unudulmaz xalq şairi Səməd Vurgun Qazıməmməd (indiki Hacıqabul) rayon sakinləri ilə görüşə gəlir. Görüşdə məktəblilər adından çıxış edən Xeybər İgidəliyev böyük şairin qarşısında "Şairə salam" şerini həvəslə söyləyir. Gənc Xeybər özünün yazdığı bu şeri söyləyib qurtarana kimi Səməd Vurgun onun boynunu 3-4 dəfə qucaqlayıb alnından, üzündən öpür. Unudulmaz şairin belə mehriban, nəvazişli münasibəti, həmçinin tamaşaçıların həmin anda ayağa qalxaraq xeyli əl çalmaları Xeybəri yeni şerlər yazmağa, yaradıcılığa həvəsləndirir, onun gələcək həyat yoluna işıq salır. Uşaqlıq çağlarımızdan radio dalğalarında, mavi ekranda aşıq və xanəndələr Xeybər müəllimin "Yalvara-yalvara" qoşmasını oxuyarkən böyük həvəs və şövqlə dinləyirdik:

*-Yar gərək, yarın qeydinə,*
*Qala yalvara-yalvara,*
*Inciyib küsən könlünü,*
*Ala yalvara-yalvara.*

*Nə adətdir, qara gözlər*
*Könül ovlar min qan eylər.*
*Bülbül eşqin bəyan eylər,*
*Gülə yalvara-yalvara.*



1960-1965-ci illərdə Xeybər İgidəliyev Azərbaycan Dövlət Universitetinin jurnalistika fakultəsində təhsil alıb. Təqaüdə çıxan günə kimi Əli Bayramlı (indiki Şirvan) şəhərində "İşıq", "Mayak" qəzetlərində müxbir, məsul katib, redaktor müavini, mətbəə direktoru vəzifələrinə irəli çəkilmiş, sonralar isə şəhər partiya komitəsində təlimatçı, təbliğat-təşviqat şöbəsinin müdiri işləmişdir. Xeybər müəllim mənalı ömür yolu keçmiş, gənc nəslin vətənpərvərliyi, estetik tərbiyəsi yolunda saç ağartmış, həyatın mənasını bütün fəlsəfi dərinlikləri duyan, bütün insanlara öz təmənnasız mehribanlığı ilə nümunə ola biləcək təvazökar, səmimi insan idi. O, yaradıcılığında da şəxsiyyət kimi səmimi idi. Şairin məhəbbət lirikası mənəvi dəyərlərə köklənmişdir:

*Əzəl gündən var dövlətə,*
*Nə sən uydun, nə mən uydum.*
*Könül verdik məhəbbətə,*
*Nə sən doydun, nə mən doydum.*
*Sənsiz, vallah həyat heçdir,*
*Tale bizi həmdəm seçdi.*
*Ömür necə gəldi, keçdi.*
*Nə sən duydun, nə mən duydum.*

Xeybər İgidəliyevin jurnalistik fəaliyyətindən danışarkən onun 1970-1985-ci illərdə respublikanın ən aparıcı mətbuat orqanı "Kommunist" qəzetində Kür-Talış Su Kəmərinin tikintisi ilə bağlı silsilə oçerk və yazılarını mütləq qeyd etmək lazımdır. 1957-1960-cı illərdə Hacıqabul stansiyası 13 saylı dəmir yolu məktəbində pioner baş dəstə rəhbəri, 1974-1978-ci illərdə Əli Bayramlı (Şirvan) şəhər 10 saylı məktəbdə müəllim, direktor müavini işləmiş Xeybər müəllim üçün redaksiyadan sonra ikinci doğma məkan məktəb olub. 1990-ci ildə Hacıqabul rayon statusu aldıqdan sonra rayon icra hakimiyyəti aparatında, xalq deputatları soveti icraiyyə komitəsində məsul vəzifələrdə çalışan Xeybər İgidəliyev doğma el-obaya, camaata vicdanla xidmət edib. O, 2002-ci ildə 65 yaşında dünyasını dəyişmişdir. Bütün bunlar barədə Xeybər müəllimin xatirəsinin işığına toplaşmış vaxtilə onunla dostluq münasibətində olmuş, birlikdə çalışmış rayon sakinləri Abdulla Zülfüqarov, Hamlet İbadov, Xədicə Abbasova, Sahib Aslanov, Süleyman Bəşirov və başqaları söz açdılar, Xeybər müəllimlə bağlı xatirələrini bölüşdülər. Tədbir iştirakçıları gələn qonaqlar- Azərbaycan Dövlət Mədəniyyət İncəsənət Universiteti aşıq yaradıcılığı kafedrasının müdiri aşıq Əhliman Şirvanlı və onun tələbələrini, filologiya elmlər doktoru, Azərbaycan Yazıçılar Birliyi Şamaxı bölməsinin sədri Seyfəddin Qəniyevi gurultulu alqışlarla qarşıladılar.

Aşıq Əhliman Xeybər müəllimlə tanışlığının tarixçəsindən danışdı, onu sakit təbiətli, səmimi, mehriban insan, əsil ziyalı kimi xatırladığını söylədi və şairin qoşmalarına bəstələnmiş bir neçə mahnı ifa etdi. Xeybər müəllimin el adətlərinə bağlılığı, öz camaatına sevgisi "Xilə toylarında", "Sevinin qız doğulanda" şerlərində daha aydın görünür:

*Ay atalar, ay analar*
*Sevinin qız doğulanda*
*Siz Allah, çox deyinməyin,*
*Sevinin qız doğulanda və ya*
*El gələr mübarəkə*
*Xilə toylarında.*
*Kədər, qüssə dağılar*
*Xilə toylarında.*

Xeybər İgidəliyevin vətənpərvərlik ruhunda yazdığı "Qalmadı" şeri çox təsirli və mənalıdır:

*Hanı Şuşa, hanı Laçın?*
*Kimlər dedi qoyub qaçın,*
*Qapıları yada açın?*
*Sirlər oldu faş, qalmadı.*

Xeybər müəllim həyat yoldaşı Şükufə xanımla iki oğul, iki qız böyüdüb boya-başa çatdırmışdır.

Istedadlı şair-jurnalist, gözəl insan Xeybər İgidəliyevin nurlu xatirəsi qəlbimizdə həmişə yaşayacaqdır.

***Nazim Fətixanoğlu***




# "ADAU günləri"ndə aqrar sahənin əhəmiyyətindən danışıldı

***Məlum olduğu kimi son illər ölkə başçısı, cənab İlham Əliyevin aqrar sahəyə xüsusi diqqəti və qayğısı nəticəsində rayonlarda kənd təsərrüfatı məhsullarının istehsalına münasibət dəyişmişdir. Cənab Prezidentin çağırışlarına uyğun olaraq bu sahədə nəticələr müsbət istiqamətdə artmaqdadır. Son illərdə kənd təsərrüfatının stimullaşdırılması, dövriyyəyə yeni əkin sahələrinin cəlb edilməsi aqrar sahədə irəliləyişlərə səbəb olmuşdur. Ölkəmizdə ərzaq təminatının daxili istehsal hesabına təmin olunması istiqamətində davamlı tədbirlər həyata keçirilir, normativ-hüquqi baza möhkəmləndirilir.***

Cari ildə Hacıqabul royonunda da digər kənd təsərrüfatı rayonları kimi bu istiqamətdə real nəticələr əldə edilmişdir. Bu günlərdə Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) təşəbbüsü ilə rayonumuzda rayon İcra Hakimiyyəti və Azərbaycan Dövlət Aqrar Universitetinin birgə təşkilatçılığı ilə "ADAU günləri" keçirilmişdir. Şəhər 10 saylı texniki-təbiət fənlər təmayüllü məktəbdə keçirilən tədbirdə rayon İcra Hakimiyyəti başçısının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Zeynəb Yunusova, Azərbaycan Dövlət Aqrar Universitetinin müəllimi, iqtisad üzrə fəlsəfə doktoru, menecment və aqrar marketinq kafedrasinin müdiri Asif Həsənov, rayon Kənd təsərrüfatı İdarəsinin bir qrup əməkdaşı, məktəblilər, ictimaiyyət nümayəndələri iştirak etmişlər.

İlk öncə çıxış edən rayon İcra Hakimiyyəti başçısının müavini, Zeynəb Yunusova qonaqları salamlayaraq rayon İcra Hakimiyyəti başçısının salamlarını tədbir iştirakçılarına çatdırdı. Azərbaycan Dövlət Aqrar Universitetinin bu təşəbbüsünü ilk və təqdirə layiq bir addım olduğunu bildirdi.

Tədbirdə çıxış edən Azərbaycan Dövlət Aqrar Universitetinin kafedra müdiri, iqtisad üzrə fəlsəfə doktoru Asif Həsənov I əsrə yaxın şərəfli tarixi olan bu universitetin müasir dövrdə əhəmiyyətini vurğuladı, universitetdə son illər aparılan çoxsaylı məqsədyönlü işləri qeyd etdi. Hazırda universitetdə tələbələrə yaradılan şəraitdən danışan A. Həsənov hacıqabullu gənclərin daha çox bu universitetin tələbəsi olmalarını arzuladı. O, aqrar sahənin xalqımız və dövlətimiz üçün zəruri bir sahə olduğunu əsaslandırdı. Sonda isə universitetin müasir vəziyyətini əks etdirən video çarx tədbir iştirakçılarına nümayiş etdirildi.

Qarşılıqlı dialoq və fikir mübadiləsi çərçivəsində keçən görüşün bundan sonra da mütəmadi olaraq keçirilməsi məqsədəuyğun hesab edildi.

# HACIQABUL

№ 04 (663) 25 fevral 2017-ci il

## “Xocalıya ədalət” kompaniyası həftəsində



*Xocalı faciəsi bəşər tarixinin ən dəhşətli faciələrindən biridir. Hər bir vətəndaşın vəzifəsi bu faciəni dünya ictimayyətinə çatdırmaqdan ibarət olmalıdır. Bu faciəni unutmamaq, yeniyetmə və gənclərdə vətənpərvərlik hissini yüksəltmək məqsədilə Xocalı soyqırımının 25-ci il dönümü ilə bağlı Gənclər və İdman İdarəsi Təhsil şöbəsi və Tarix Diyarşünaslıq Muzeyi ilə birlikdə “Xocalı soyqırımı gənc rəssamların əsərlərində” mövzusunda rəsm müsabiqəsi keçirmişdir. Müsabiqəyə təqdim olunan rəsmlər münsiflər heyyəti tərəfindən qiymətləndirilmiş və qaliblər diplom və hədiyyələrlə mükafatlandırılmışdır. Beləliklə:*

I yerə Fazilə Hüseynova, Samir Qəhrəmanov, II yerə İxtiyar İbrahimov, Tamara Hüseynova, III yerə Səbinə Hüseynova, Aksana Mirzəyeva, həvəsləndirici yerlərə isə Tamaşa Əhmədova, Fatimə İsmayılova, Adilə Məhərrəmli və Dilarə Babayeva layiq görülmüşlər.

***Bəsti Zərbaliyeva,***
***rayon Gənclər və İdman İdarəsinin***
***Aparıcı məsləhətçisi***

"Xocaliya ədalət" kompaniyası həftəsində oğlan və qızlardan ibarət komandalar arasında 21-24 fevral 2017-ci il tarixində voleybol üzrə şəhər birinciliyi keçirilmişdir. Birincilikdə 16 ümumtəhsil tam orta məktəblərin komandaları iştirak etmişdir. Oğlanlar arasında I yerə şəhər 5 saylı, II yerə şəhər 8 saylı, III yerə şəhər 10 saylı tam orta məktəblərin komandaları layiq görülmüşdür. Qızlar arasında I yerə şəhər 2 saylı, II yerə şəhər 8 saylı, III yerə isə şəhər 10 saylı tam orta məktəblərin komandaları layiq görülmüşdür. Qalib komandalar rayon Gənclər və İdman İdarəsi tərəfindən diplom və kubokla mükafatlandırılmışdır.

***Zimistan Qurbanov,***
***rayon Gənclər və İdman***
***İdarəsinin rəis müavini***



## 2017-ci il mart ayı üçün Hacıqabul rayon İcra Hakimyyəti Başçısı Aparatında vətəndaşların qəbul günləri

| Vəzifəsi | Həftənin günləri | Saat |
|---|---|---|
| İcra Hakimiyyətinin Başçısı | I | 15:00 |
| İcra Hakimiyyəti Başçısının birinci müavini | II | 14:00 |
| Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | III | 14:00 |
| Başçının müavini-İctimai, siyasi və humanitar məsələlər şöbəsinin müdiri | IV | 14:00 |
| Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanı ilə iş şöbəsinin müdiri | V | 14:00 |
| Memarlıq və tikinti şöbəsinin müdiri | VI | 10:00 |

**Qeyd: Vətəndaşların qəbulu ilə bağlı əlaqə telefonları:** (02120) 4-41-91, (02120) 4-41-58

## Şam işığında



Şəhər 4 saylı tam orta məktəbdə Məhəmməd Füzulinin lirikasından bəhs edən “Şam işığında” adlı ədəbi-bədii gecə keçirildi. Tədbirdə ümumtəhsil məktəblərinin pedaqoji və şagird kollektivləri iştirak edirdi. Tədbirin keçirilməsində məqsəd ədəbiyyata, qiraətə maraq yaratmaq, Məhəmməd Füzulinin həyat və yaradıcılığı, əsərləri, xüsusilə qəzəlləri haqqında ətraflı məlumat almaq, şagirdlərə Füzuli yaradıcılığının gözəlliklərini aşılamaqdan ibarət idi. Ilk öncə məktəbin dil-ədəbiyyat müəllimi Lətifə Gözəlova Füzulinin həyat və yaradıcılığı haqqında tədbir iştirakçılarına ətraflı məlumat verdi. Sonra Xa sinfinin hazırladığı ədəbi-bədii kompazisiya ilə tədbir davam etdi. Milli musiqi alətlərinin müşayiəti, Füzuli lirakasının incəlikləri, şagirdlərin ifasında səsləndirilən qəzəllər və musiqilər hər kəsdə nostalji hisslər yaratdı.

***Məryəm Nəhmədova,***
***Məktəbin təşkilatçısı***

*Əziz sakinlər!*

***Gələcək həyatınızı düşünürsünüzsə, iş axtaranda çətinlik çəkmək istəmirsinizsə təcili olaraq bizə müraciət edin.***

***Artıq Hacıqabul rayonunda Dövlət qeydiyyatından keçmiş təhsil mərkəzi açıldı***

***“Uğur Şəxsi İnkişaf Mərkəzi”***



**Ünvan: 10 Saylı Litsey**





***Mərkəzimizdə:***
***1. İngilis dilində danışıq***
***2. Rus dilində danışıq***
***3. Kompüter kursları + AutoCaD və 3d Max***
***4. Natiqlik. (Sərbəst nitq qabiliyyəti)***
***5. Məktəbə qədər balalarımızın (4,5,6 yaş) hazırlığı + Defektoloq Loqoped***
***7. Psixoloq (Bakı. şəh)***
***8.İbtidai siniflərin (1-5 qədər) hazırlığı (3 fəndən)***
***9. Gitara və Rəssamlıq***





***Dərslər, “İKT” proqramı ilə keçirilir...***
***Hər kursa ayrılıqda,tələbənin bilik səviyyəsinə uyğun olaraq sertifikat və diplom verilir.***



*Əlaqə: 055 489-94-56 / 070 2284448*
*Facebook səhifəmiz:*
*Hacıqabul Şəxsi İnkişaf Mərkəzi*
*Instagram^*
*haciqabul_shexsi_inkishaf*

## Elan

14 noyabr 1997-ci ildə Meyniman kənd sakini Həsənova Gülpəri Əlimusa qızının adına verilmiş torpağın mülkiyyətə verilməsinə dair JN-307, kodu 91004018 olan Dövlət Aktı itdiyi üçün etibsarsız sayılır.

## Allah rəhmət eləsin!

Mərkəzi Rayon Xəstəxanasının baş həkimi Beydulla Qarayev həkim Məhəmməd Gözəlova bacısı

**Afət xanımın**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

---

MRX-nın cərrahiyyə şöbəsinin müdiri Hacı Həmidov və şöbənin işçiləri həkim Məhəmməd Gözəlova bacısı

**Afət xanımın**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

---

Navahı kənd tam orta məktəbinin pedaqoji kollektivi məktəbin tarix müəllimi

**Afət Səlimovanın**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə, yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Navahı kənd tam orta məktəbinin pedaqoji kollektivi iş yoldaşları

**Xurma Bağırovanın**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə, yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

“Hacıqabul” qəzetinin əməkdaşı Nazim Fətixanoğlu Əmrah Səlimova həyat yoldaşı

**Afət xanımın**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

**HACIQABUL**

**Baş redaktor:**
Xuraman Feyruzqızı

**Həmtəsisçi:**
Qəzetin jurnalist kollektivi

Qəzet “Hacıqabul” qəzetinin kompyuter mərkəzində yığılmışdır, “Apastrof” çap evində ofset üsulu ilə çap olunmuşdur

Kapital Bank Hacıqabul filialı
İndeks: 66975
Lisenziya: № 022579
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**Ünvan:** Hacıqabul şəhəri, İ.Qayıbov küçəsi 4.
**Tel:** 4-32-00,
**Tiraj:** 1200